# Sufizm. Yunus İmrə.(1240-1320)

**Sufizmin tarixinə və mahiyyətinə dair.** "Sufizm və ya təsəvvüf" mahiyyət etibarilə eyni mənanı ifadə edən anlayışlardır. Eyni inanc sistemini ifadə etmək üçün her iki terminden paralel şəkildə istifadə olunur.

**Sufizm** orta əsrlərdə islam aləmində geniş yayılmış dini-fəlsəfi mistik mənəvi-əxlaqi düşüncə və davranış sistemidir. Termin kimi bunun mənşəyi və mahiyyəti barədə çeşidli yozumlar mövcuddur. Türk alimi N.S.Baharlı həmin fikirləri bu şəkildə xülasə edir:

**1.”Sufi”** sözü ərəbcə **“yun”** və ya **“qaba yundan hazırlanmış parça”** mənasını verən **“suf”,”sof”** sözündəndir**.”Sufi”** isə həmin parçadan paltar geyən adama deyilir.İlk sufilər həm zənginlikdən uzaq sadə bir həyat yaşadıqlarını bildirmək,həm də başqalarından fərqlədiklərini, ayrıca bir qrup olduqlarını göstərmək üçün yun xirqə və ya paltar geyərdilər.Bəzi peyğəmbərlərin o cümlədən Məhəmməd(s.ə.s)peyğəmbərin və onun bir çox əshabələrinin də bu cür paltar geyindikləri barədə məlumatlar var.Görkəmli din adamı **Həsən Bəsri Bədr** döyüşündəki qazilərdən 70-dən çoxu yun geyim geydiklərini öz gözləri ilə gördüyünü söyləyir.

**2.**Bu istilahın **“səfavi”,”səfəvi”,**yəni namaz vaxtı təşkil olunmuş ilk cərgədə duranlara verilən ad anlamına gəldiyini söyləyənlər var.

**3.Sözün "eyvan" mənasını verən "suffa" kəlməsi ilə bağlı** olduğu da ehtimal edilir. Belə ki, Məhəmməd (s.ə.s) peyğəmbərin zamanında mühacirlərin fəqirlərindən olan,yoxsul yaşayışa malik bir qrup var idi ki, onlar mütəmadi olaraq peyğəmbər məscidində və onun eyvanında ibadət edirdilər.Yaşayış yerləri olmadığından məsciddə qalırdılar.Kasıb həyat tərzi keçirən **və qənaətlə dolanan bu adamlara "əshabi-süffə"** deyirdilər.

**4.**Bu islahın ərəbcə **"parlaq", "saf", "təmiz"** mənalarını verən **"səfa"** kəlməsindən yarandığı da mülahizə edilir.Həmin fikrin tərəfdarları deyilən mənanı mənəvi-əxlaqi paklıq,daxili saflıq və Haqqa gedən yoldakı ruhi təmizlik ilə əlaqələndirirlər.

**5."Sufi"** termini qeyri-ərəb mənşəli hesab edib onu yunan və ibrani söz kimi də qəbul edənlər var.Əbureyhan Biruniyə görə ,"sufi","sofi" sözü yunanca "düşüncə","hikmət"mənanı verən **"Sofiya"** sözündəndir.

**6.**İbrani dilində kainat yaradılmazdan əvvəl mövcud olan,lakin öz mövcudluğundan xəbərsiz tək  və mütləq varlığa **"ən sof"** deyilmişdir.

Yuxarıda deyildiyi kimi,daha çox sabitləşmiş anlama görə "suf" yun və ya qaba yundan hazırlanmış paltar**,"Sufi"** isə həmin paltarı geyinənə deyilmişdir.Ancaq zaman keçdikcə bu istilahın məna tutumu daha da genişlənmişdir.Artıq irfani əqidə daşıyıcılarına "sufi"

deməyə başlamışlar və bu ad daha geniş coğrafi əraziyə yayılmağa üz tutmuşdur.

Sufizm bir etiqad və düşüncə tərzi kimi özünəqədərki başqa din və fəlsəfi görüşlərlə bağlılığı və oxşarlığı olsa da,o, islam dininin bətnindən doğulmuş,mühüm bir islam hadisəsi kimi nəşət etmişdir.Doğrudanda,onun əsas qaynaqları məhz islami cəmiyyətin atributlarıdır.Quran Məhəmməd(s.ə.s)peyğəmbərlə əlaqəli sünnə və hadisələr, səhabələrin kəlamları və davranış normaları, əhli-beytin sadə həyat tərzi, **zöhd, təqva, təvəkkül, ixlas, şəriət** qaydalarına dürüst əməl etmək,Tanrı eşqi ilə yaşamaq nəfslə mübarizə və s.təsəvvüfün ilkin qaynaqları srasındadır.

**Sufi həyatı yaşayan ilk dərvişlərdən Həsən Bəsrinin adı daha çox məşhurdur.”Əs-sufi”** ləqəbinin işlədilməsi bir qədər sonraya aiddir.Belə bir ləqəblə tanınan ilk şəxsiyyətlər kimi kufəli **Əbu Haşiminin** və estetik həyat tərzi və əqidəsi olan **kimyagər Cabir ibn həyyanın** adı çəkilir.VIII əsrin ikinci yarısında yaşamış hər iki mütəsəvvüf kufəlidir.Deməli **“əs-sufi”ləqəbi ilk dəfə KUFƏDƏ** işlədilmişdir.

**XI-XII əsrlərdə**,demək olar ki,sufizmin elmi-nəzəri və dini fəlsəfi bir təlim kimi formalaşması başa çatdı.Bu dövrdə yetişən bir çox mütəsəvvürlərin şərhləri,müxtəlif səpkili əsərləri bu sistemin zəginləşməsinə və bütövləşməsinə xidmət etdi.”Şeyxi-əkbər” ləqəbi almış

**Mühyəddin ibn Ərəbinin** şərhləri,xüsusilə onun **vəhdəti-vücud** təlimi ilə sufizm zirvəyə çatdı,bütöv və mükəmməl bir dini-fəlsəfi sistemə çevrildi.

**Cəlaləddin Rumi** təsəvvüf və irfanın sənətlə, qovuşmasında böyük əməli iş gördü. Şeiri musiqini və səmanı xanəgaha,sufi məclislərinə daxil edib bir növ mənəvi-əxlaqi cəhətdən qanuniləşdirdi.

Onun məsnəvisi təsəvvüf və irfani görüşləri ifadə və təbliğ edən ən kamil bədii nümunələrdən sayılır.İrfanın bədii zövq və sənət nəşəsinə çevrilməsində və bu yolla papulyarlaşmasında Cəlaləddin Ruminin xidmətləri əvəzsizdir.

Sufizmdə iki böyük məktəb **Bağdad və Xorasan məktəbləri** xüsusilə diqqəti cəlb edir ki,ünlü təriqət başçılarının və tanınmış təsəvvüf və irfan öncüllərinin bir çoxu bu məktəblərinin yetirmələridir.

Qeyd edək ki,sufizm dini-mistik və fəlsəfi əxlaqi bir cərəyan kimi bütöv bir sistemə və tipoloji xüsusiyyətlərə malik olsa da, həmin sistemin daxilində çoxlu sayda fərqli, zidd, hətta bir-birini inkar edən fikirlər, müxtəlif təmayüllər, şaxələnən firqə və təriqətlər mövcuddur. Elə sufi təriqətləri və təsəvvüf əhli olmuşdur ki, təkcə ruhanilər, fəqih və mütəxəllimlər yox, mütərəqqi sufilərin və ariflərin özləri də onlara **mənfi münasibət** bəsləmişlər. **Belə bir mənfi münasibət daha çox aşağıdakı hallarla bağlı özünü büruzə vermişdir: hülal, tənasüx,** dini və

ictimai baxımdan qeyri-məqbul görünən geyimlər və meyllər ; bəzi sufilərin tiryək, şərab, eyş-işrət və əyləncəyə qurşanıb guya bu yolla vəcdə gələrək ilahi varlığa qovuşması  və s. **İttihad** insanın şövq ilə haqqa qovuşub onun zatına fəna olmasıdır.**Tənasüx** ruhun bir cisimdən başqasına keçməsinə ,**Hülul i**sə Allahın İsa peyğəmbərdə və ya insanda təcəssümünə inamdır.

**Ruh,bədən,ağıl,nəfs,qəlb**.Sufizmdə bunlarla bağlı özünə məxsus düşüncə tərzi və yozumları mövcuddur.Quran məntiqinə söykənən təsəvvüf və irfan inancına görə insanın maddi cövhər olan bədənində Haqqın özünəməxsus olan ruh vardır.Quranın bir neçə ayəsində buna işarələr vardır.**”Əl-Hicr” surəsinin 29-cu ayəsində  Allah –təalanın Adəmə surət verib ona öz ruhundan üfürdüyü aşkar şəkildə nəzərə çatdırılır.Bir** hədisdə isə belə deyilir;

**“Allah əvvəl o şeyi xəlq etdi ki, o ruh idi”.**İrfan əhlinə görə bu ilk yaranan isə Məhəmməd(s.ə.s)peyğəmbərin ruhu idi.

Sufi düşüncəsinə görə iki cür ruh mövcuddur; **heyvani ruh ,insani ruh. Heyvani ruh** bütün canlılarda eyni zamanda insanlarda da vardır. Bu canlı varlığı yaşadır, ona həyati qabiliyyət verən mənəvi cövhərdir ki, ona **Can deyirik.**

**İnsani ruha isə qüdsi ruh, pak ruh, ilahi ruh da deyilir.** Heyvani ruhdan fərqli olaraq bu ruh yalnız insana məxsusdur.Başqa heç bir canlıda bu ruh mövcud deyil.

**YUNUS İMRƏ** XIII əsr türk sufi şeirinin inkişafında mühüm rol oynamış, xalq ədəbiyyatı zəminində gözəl yaradıcılıq irsi yaratmış ümümtürk ədəbiyyatı tarixinin nəhəg simalarından biridir.Təəssüflər olsun ki,onun həyatı elmi faktlar əsasında deyil daha çox rəvayətlərə uyğun şəkildə öyrənilmişdir.

Yunus İmrə Ön Asiyada türkdilli təsəvvüf ədəbiyyatının ilk böyük nümayəndəsidir. Orta Asiyada Əhməd Yəsəfi ilə başlayan xalq təsəvvüf şeiri indikin Türkiyə hissəsində onun simasında təkcə davam etdirilməmiş,həm də yüksək zirvəyə çatdırılaraq ədəbi məktəb səviyyəsinə qaldırılmışdır. Y.İmrə yaradıcılığa əsas etibarı ilə türk milli şeir vəzni olan hecada, qismən də əruzda yazılmışdır. Bu vəzndə daha çox dördlükdən istifadə etmişdir.

Y.İmrə yaradıcılığında **“Divan”a** daxil olan nümunələr üstünlük təşkil edir. **Qəzəl,məsnəvi,ilahi,nəfəs** və s.şeir şəkillərinin yer aldığı **Y.İmrə divanı heca və əruz vəznində** yazılmışdır.

Yunus İmrə Tanrı şairidir.Onun şeirləri insanları Allaha doğru qanadlandıraraq könüllərdə zərrənin (insan) bütövə (Allah) “birləşmək” ümidlərini artırır.

**Sənsiz yola girir isəm,**
**Çarəm yox addım atmağa**
**Gövdəmdə qüvvəti sənsən,**
**Başım götürüb getməyə,**

**Könlüm,canım,əqlim,elmim**
**Sənin ilə qərar edər**
**Can qanadı açıq gərək,**
**Uçuban dosta getməyə.**

Y.İmrə vəhdəti-vücud fəlsəfəsinə uyğun olaraq zahiri(məqrəsə) və batini (ürfan,həqiqət) elmlər srasında ikincinin Allahı dərk etmək elminin vacibliyini önə çəkir.

**Oxudun nə mənası,**
**Əgər haqqı bilməsən.**
**Haqqı ki,bilmədin sən**
**Demək quru əməkdir.**

Yunus İmrə bu yolun qismətini-Allaha qovuşmağı elmi biliklərdə yox, könül,duyğu "bilimində" mümkün sayır.

**Elm ilə,hikmət ilə**
**Kİmsə bu sirrə çatmaz**
**Bu bir əcaib sirrdir,**
**Elmə, kitaba sığmaz.**

Sufi sənətkar könül gözünün açılmasını aşiq,məşuq halında axtarmaqda olduqca haqlıdır.Y.İmrənin eşqi məcazi deyil, həqiqi Allah eşqidir.Yunus İmrə tanrı eşqi ilə nəfəs almayan könlü viranəyə bənzədir.

**“Bir mən vardır məndə məndən içəri”** deyən Y.İmrənin aşiqliyinin səbəbləri və eşqə mübtəla “mən”inin Tanrıya doğru uzanan yolda son məqama yetişmək arzuları bəlli olur;

**Eşqin aldı məndən məni,**

**Mənə səni gərək,səni.**

**Mən yanaram dünən,bu gün**

**Mənə səni gərək, səni.**

Onun şeirlərində insana olan sevgi və məhəbbətin əsasında insanın Allahın bir parçası olması ideyası dayanır. Allaha üz tutub “varlığım səndədir” deyən şair haqqa tapınan hər bir insana dərviş sevgilərini ifadə edir. Şairin həqiqi aşiqliyi bütün məqamlarda ruhuna hakimdir, etdiklərinin kortəbii deyil, şüurlu olduğunu təsdiqləyir.

**Eşq məqamı alidir,eşq qədim, əzəlidir.**

**Eşq sözü söyləyən cümlə-qüdrət dilidir.**

**Deyən ol,eşidən ol,görən ol,göstərən ol**

**Hər sözü söyləyən ol,surəti can mənzilidir.**

Yunus İmrə düşünən insanın fikirlərində Allaha çatmağın yollarını əks etdirir.Burada sevgi,istək o qədər güclüdür ki,insan sevginin yaratdığı “çəkisizliyə” düşür,bəzən özünü unudaraq dünyadan köçmək vədəsini də gözləyə bilməyib şikayətçiyə çevrilir.

Yunus İmrə bir ürfan sahibi olaraq peyğəmbərə,övliyalar müqəddəs şəxslərə Allahın nuru kimi baxmış,xüsusilə Məhəmməd (s.ə.s) peyğəmbərə ithaf olunan şeirlərdə onu “haqq peyğəmbəri”, “mələklər mülkünün sultanı”, “tanrı elçisi” və s. şəkildə mədh edir.

**Sən haqq peyğəmbərsən şəksiz,gümansız,**

**Sənə uymayanlar gedər imansız.**

**Aşıq Yunus neylər dünyanı sənsiz,**

**Adı gözəl , özü gözəl Məhəmməd.**

Həzrəti Məhəmmədə şairin məhəbbəti o qədər güclüdür ki, Allah rəsulunu görmək, ona qovuşmaq istəyi həsrət yanğısı şəklində ifadə olunur.

**Arayıb,axtarıb taparam sizi**

**İzinin tozuna sürtəm üzümü,**

**Haqq nəsib eyləsə görsəm üzünü**

**Ya Məhəmməd,könül arzular səni.**